*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 11 noyabr 2015-ci il № 86 (2002) Qiyməti 25 qəpik

## Azərbaycan Prezidenti:

## Biz öz tariximizi dünya miqyasında daha dolğun təqdim etməliyik

***Azərbaycanın çox zəngin tarixi vardır. Azərbaycan alimləri də, Azərbaycan ictimaiyyəti də bunu yaxşı bilirlər. Biz öz tariximizi, bu reallıqları dünya miqyasında daha da dolğun təqdim etməliyik.***

Bu fikirləri Prezident İlham Əliyev AMEA-nın 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncağında bildirib.

Dövlətimizin başçısı qeyd edib ki, zəngin tariximizin dünyaya çatdırılması vacibdir. Prezident deyib: "Digər tərəfdən, bizə qarşı təxribatlar aparılır. Yəni, Azərbaycan tarixini ermənilər təhrif etməyə çalışırlar və diaspor imkanlarından istifadə edərək, bəzi hallarda buna nail olurlar. "Erməni alimləri" xüsusilə regionun, Cənubi Qafqazın tarixi ilə bağlı yalan, uydurma əsasında kitablar dərc edirlər, təqdimatlar keçirirlər. Əlbəttə ki, bizim tariximiz bizim böyük sərvətimizdir. Bizim tariximiz onu göstərir ki, azərbaycanlılar bu torpaqda əsrlər boyu yaşamışlar. Bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir, hər kəs görsün ki, indiki Ermənistan ərazisində yerləşən kəndlərin, şəhərlərin mütləq əksəriyyətinin adları Azərbaycan mənşəlidir. Budur reallıq".

**AZƏRTAC**

## Gürcüstan Prezidenti:

## Gürcü xalqı çətin anlarda Azərbaycanın göstərdiyi qardaşlıq köməyini rəğbətlə xatırlayır

***Gürcüstanda yaşanan çətin anlarda Azərbaycan xalqının və dövlətinin göstərdiyi qardaşlıq köməyi gürcü xalqı tərəfindən daim rəğbətlə xatırlanır.***

AZƏRTAC xəbər verir ki, bu sözləri noyabrın 5-də Tbilisidə Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili Azərbaycan Prezidenti İlham Əliyevin şərəfinə verilən rəsmi ziyafət zamanı deyib.

Giorgi Marqvelaşvili bildirib ki, Gürcüstan və Azərbaycan xalqlarının ortaq tarixi, ən önəmlisi isə münasibətlərimizin möhkəm təməlini əks etdirən nadir dostluq əlaqələri var. Bu möhkəm dostluq münasibətləri Azərbaycanın və Gürcüstanın sabiq rəhbərləri Heydər Əliyevə və Eduard Şevardnadzeyə regional əməkdaşlıq üçün çox əhəmiyyətli strateji layihələri həyata keçirmək işində mühüm dəstək olub.

"Bu səylər bizim ölkələrə və ümumilikdə, regiona geosiyasi əhəmiyyət verib. Bu önəmli təşəbbüsün başlanmasından ötən iyirmi il ərzində möhkəm dostluq və yaxın əməkdaşlığımız sayəsində biz çoxsaylı çağırışlara lazımınca cavab verə bilmişik", - deyə Gürcüstan Prezidenti vurğulayıb.

## AŞPA-da Dağlıq Qarabağla bağlı məruzə qəbul olundu

***AŞPA siyasi komitəsinin Parisdə keçirilən iclasında britaniyalı məruzəçi Robert Valterin hazırladığı "İşğal olunmuş Dağlıq Qarabağ və ətraf ərazilərdə gərginliyin artması" adlı məruzə səsə qoyularaq qəbul olunub.***

Müzakirələr zamanı Ermənistan nümayəndə heyəti məruzəçiyə qarşı ittihamlar irəli sürüb və məruzənin qəbul olunmaması üçün cəhdlər göstərib. Yaranan vəziyyəti nəzərə alan komitə sədri məruzənin AŞPA-nın yanvar sessiyasına tövsiyə olunmasını səsverməyə qoyub və erməni deputatların ciddi səylərinə baxmayaraq, məruzə siyasi komitənin, demək olar, bütün üzvləri tərəfindən dəstəklənib və qəbul olunub.

Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov tərəfindən irəli sürülən təkliflər siyasi komitənin əksər üzvləri tərəfindən dəstəklənərək məruzəyə daxil edilib. Bu təkliflərə Ermənistan nümayəndə heyətinin konstruktivlikdən uzaq davranışı, apardığı siyasətin pislənilməsi və bu siyasətə son qoyulması, Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyətlə bağlı məsələlərin Ermənistanın birbaşa məsuliyyəti, onun törətdiyi işğalın nəticəsi olması, azərbaycanlıların Dağlıq Qarabağda qeyri-qanuni hökm əsasında girov saxlanılması və onların dərhal azadlığa buraxılması daxildir.

**AZƏRTAC**

# Dövlətimizin ali qanunu

## Müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul olunmasından 20 il keçir

***Konstitusiya hər bir dövlətin tarixində mühüm əhəmiyyət kəsb edən ali hüquqi sənəddir, vətəndaşların bütün hüquq və vəzifələri burada təsbit olunur. Hələ on əsr bundan əvvəl İngiltərədə belə oxşar qanunlar toplusu qəbul olunub. Sonra ABŞ-da dünyada ilk dəfə olaraq Konstitusiya aktı qəbul edilib. Azərbaycan Respublikasının müstəqillik dövrünə qədər dörd Konstitusiyası olub, amma bildiyimiz kimi, o zaman ölkəmiz SSRİ adlı ittifaqın tərkibində müttəfiq respublika idi. Əslində ittifaq dövründə qəbul edilmiş Konstitusiyalarımız daha çox Sovet üsul-idarəsinə uyğun hazırlanmışdı və bu hüquqi sənədlərdə xalqımıza xas olan milli dəyərlər əksini tapa bilməzdi.***

Ümummilli lider Heydər ƏLİYEV:

*Biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd - siyasi, hüquqi sənəd yaratmışıq. Bizim Konstitusiya layihəsinin ən mühüm əhəmiyyəti ondan ibarətdir ki, bu, ilk, tamamilə sərbəst, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır.*



Nəhayət, Azərbaycan ötən əsrin sonlarında tarixi müstəqilliyinə qovuşdu və öz hüquqi dövlət sistemini yaratdı. Artıq milli ruhda yeni Konstitusiyanın yaradılması tarixi zərurət idi. Buna görə də 1995-ci ildə Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə oldu. Əsas Qanunumuzun yaradıcısı, dahi rəhbərimiz Heydər Əliyev qeyd edirdi ki, Konstitusiyanın qəbul edilməsi cəmiyyətimizdə böyük əhəmiyyət kəsb edən tarixi bir hadisədir. "Biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd - siyasi, hüquqi sənəd yaratmışıq. Bizim Konstitusiya layihəsinin ən mühüm əhəmiyyəti ondan ibarətdir ki, bu, ilk, tamamilə sərbəst, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır".

Ümummilli liderimizin rəhbərliyi və təşkilatçılığı ilə işlənib hazırlanan Konstitusiya layihəsi geniş müzakirələrdən sonra 1995-ci il noyabrın 12-də ümumxalq referendumunda qəbul edildi və noyabrın 27-də hüquqi qüvvəyə mindi.

5 bölmə, 12 fəsil və 158 maddədən ibarət olan Konstitusiyamızın qəbul olunması milli dövlətçiliyimizin inkişafında və möhkəmlənməsində mühüm mərhələ oldu, hüquqi dövlət quruculuğunda, cəmiyyətimizin bütün sahələrində demokratik proseslərə güclü təkan verdi. Təsadüfi deyil ki, ümumxalq səsverməsinə çıxarılmış Konstitusiya layihəsi çox böyük səs çoxluğu ilə qəbul edildi. Elə bu amilin özü də gənc, müstəqil respublikada xalqla dövlət arasında möhkəm, monolit birliyin mövcud olduğunu sübuta yetirdi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "...Xalqımızın ümummilli lideri, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış Konstitusiya müasir dünyanın sivil dəyərləri və qanun yaradıcılığı təcrübəsinə, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrinə, milli və ümumbəşəri prinsiplərə söykənərək demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu üçün möhkəm təməl yaratmışdır".

Həyatımızın Əsas Qanunu olan Konstitusiyanın kifayət qədər demokratik ruha malik olması ölkəmizdə milli dövlət quruculuğu prosesini istiqamətləndirən və bu sahədə həyata keçirilən islahatlara təminat verən əsas amillərdəndir. Ümummilli liderimizin bilavasitə rəhbərliyi və təşkilatçılığı ilə hazırlanmış Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmış müddəalar müstəqil ölkəmizin müasir bir dövlət olaraq dünyanın siyasi aləmində özünə layiqli yer tutmasına gətirib çıxarmışdır. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Konstitusiyanın əksər maddələri insan hüquq və azadlıqlarına həsr edilib, bu isə Azərbaycanda hər kəsin azadlığının və toxunulmazlığının qorunmasını sübut edir.

Konstitusiyamızın müvafiq maddələri ordu quruculuğuna, Vətənimizin müdafiəsinin təmin edilməsinə həsr olunub. "Vətəndaşların əsas vəzifələri" bölməsində göstərilir ki, Vətənin, doğma yurdun müdafiəsində dayanmaq, onu işğalçılardan qorumaq hər bir ölkə vətəndaşının müqəddəs borcudur. 76-cı maddədə deyilir: "Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər".

Silahlı Qüvvələrimizin hərbi hissə və birləşmələrində Konstitusiyanın təbliğ olunmasına cavabdehlik daşıyan zabitlərimiz hər bir əsgərin hərbi xidmət keçməsinin onun Əsas Qanunla nəzərdə tutulmuş vətəndaşlıq vəzifəsi olduğunu izah etməlidirlər.

Dövlətçiliyin formalaşmasında mühüm amillərdən olan hakimiyyət bölgüsü prinsipləri də Azərbaycan Respublikasının Konstitusiyasında çox dəqiqliklə öz əksini tapıb. Əsas Qanuna görə, respublikamızda icra hakimiyyəti Prezidentə, qanunvericilik hüququ parlamentə, məhkəmə hakimiyyəti isə məhkəmələrə aiddir və bu fəaliyyət bölgüsü səmərəli idarəetməni təmin etməyə əsas verir.

Konstitusiyanın "Dövlətin əsasları" fəslinin 9-cu maddəsində aşağıdakı prinsiplər öz əksini tapıb:

I. Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr və başqa silahlı birləşmələr yaradır.

II. Azərbaycan Respublikası başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münasibətlərin həlli üsulu kimi müharibəni rədd edir.

III. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanıdır.

Azərbaycan Silahlı Qüvvələri işğalçı, qəsbkar ordu deyil. Ordu quruculuğunu inkişaf etdirməkdə dövlətimizin əsas məqsədi yalnız sülhü, təhlükəsizliyi və əmin-amanlığı bərpa etməkdir. Ölkəmizin ərazi bütövlüyü qonşu Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalıb və torpaqlarımızın 20 faizi işğal olunub, bir milyon yurddaşımız doğma ev-eşiyindən didərgin salınıb. Buna görə də Azərbaycan haqlı olaraq hərbi potensialını artırmağa və öz ordusunu gücləndirməyə önəm verir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dəfələrlə dövlətimizin rəsmi mövqeyini bəyan edərək bildirib ki, beynəlxalq hüquqla tənzimlənən qanuni ərazilərimiz sülh və danışıqlar yolu ilə geri qaytarılmazsa, onda ölkəmiz hərbi qüdrətini artırmaqda israrlı olacaqdır.

Silahlı Qüvvələrimizin şəxsi heyətinin əsas vəzifələrindən biri də Konstitusiyamızın prinsiplərini mükəmməl öyrənməkdir. Bu məqsədlə hərbi hissələrdə keçirilən ictimai-siyasi hazırlıq məşğələlərində Əsas Qanunumuz maddə-maddə əsgərlərə aşılanır, onlara qanuna hörmət və əməl etmələri tövsiyə edilir. Şəxsi heyətlə iş üzrə komandir müavinlərinin bilavasitə təşkilatçılığı ilə Konstitusiyamızın mahiyyəti və qanunların məsuliyyəti şəxsi heyətə dərindən öyrədilir. Bu isə orduda döyüş tapşırıqlarının yerinə yetirilməsində məsuliyyət hissinin artırılmasına zəmin yaradır.

**"Azərbaycan Ordusu"**

## General-polkovnik Zakir HƏSƏNOV:

# Döyüş bayraqlarımızı Azərbaycanın işğal olunmuş torpaqlarında ucaldacağıq

### Müdafiə naziri cəbhə bölgəsində yerləşən hərbi hissədə keçirilən Dövlət Bayrağı Günü bayramında iştirak edib

***Müdafiə Nazirliyinin rəhbərliyi cəbhəboyu zonada yerləşən hərbi hissələrdən birində Dövlət Bayrağı Günü münasibəti ilə keçirilən tədbirdə iştirak edib.***

Əvvəlcə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" sərəncamı bir daha şəxsi heyətin diqqətinə çatdırılıb.

Düşmənlə üz-üzə səngərlərdə döyüş növbətçiliyi aparan şəxsi heyətlə keçirilən tədbirdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ordu qarşısında qoyduğu bir sıra tapşırıqları diqqətə çatdıraraq bildirib:






"Ali Baş Komandan, möhtərəm cənab Prezidentin diqqəti, qayğısı və birbaşa rəhbərliyi nəticəsində ordu son vaxtlar sürətlə inkişaf edir, bütün istiqamətlərdə yüksək nailiyyətlər əldə olunur.

Cəbhədə keçirilən tədbirlər nəticəsində xeyli sayda düşmən məhv edilib, o, psixoloji cəhətdən sarsıdılıb. Əsgərlərimizin ruh yüksəkliyi düşmənləri qorxudur. Onlar vahimə içərisindədirlər.

Müdafiə Nazirliyinin rəhbərliyi ilə cəbhə bölgəsində şəxsi heyətin xidməti döyüş fəaliyyətini, döyüş növbəsini yoxladıq. Bir daha əmin olduq ki, Azərbaycan əsgəri mərd şəkildə cəbhədə düşmənlə üz-üzə dayanaraq onu işğal olunmuş torpaqlarımızdan qovaraq ərazilərimizi azad etməyə tam hazırdır. Buna nail olmaq üçün bizim bütün imkanlarımız var.

Hər gün ordumuz müasir silahlar, toplar, zirehli texnikalarla silahlanır, yeni tikililər, o cümlədən sizin də xidmət etdiyiniz hərbi hissəniz əsgər və zabitlərin istifadəsinə verilir. Bunlar hamısı bizə imkan verir ki, haqq sözümüzü, mövqeyimizi müdafiə edək və qısa bir müddətdə ermənilərə göstərək ki, Azərbaycan xalqı, ordusu onlardan qat-qat üstündür. Biz bunu bu yaxınlarda düşmənə sübut edəcəyik. Qısa müddət ərzində həyata keçirilən əməliyyatlar göstərdi ki, işğalçını hansı aqibət gözləyir.

Bu bayram günündə mən xüsusi qeyd etmək istəyirəm ki, möhtərəm cənab Prezidentin bizə təqdim etdiyi döyüş bayrağımız da dövlət bayrağının rəmzlərini əks etdirir. Biz hamımız bir yerdə o günü yaxınlaşdırmalıyıq ki, döyüş bayraqlarımızı Azərbaycanın işğal olunmuş torpaqlarında ucaldaq.

Hər bir Azərbaycan əsgəri nümunəvi nizam-intizama malik olmalı, xidməti fəaliyyətini, döyüş hazırlığını daim artırmalı, sərəncamındakı ən müasir silah-sursat və hərbi texnikanı bacarıqla istifadə etməyə qadir olmalı, işğalçılara qarşı döyüşlərdə mərdlik və fədakarlıq göstərməyə hər an hazır olmalıdır.

Azərbaycan Silahlı Qüvvələrinin gücü məhz şəxsi heyətin vətənpərvərliyində, döyüş əzmi və ruh yüksəkliyində, yüksək nizam-intizamında və peşəkarlığındadır.

Bir daha sizi təbrik edir və uğurlar arzulayıram".

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Müdafiə naziri cəbhə bölgəsində istifadəyə veriləcək üç hərbi şəhərcikdə aparılan tikinti işlərinin gedişatını yoxlayıb








***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, yeni hərbi hissələrdə tikinti-inşaat işləri davam edir.***

Müdafiə Nazirliyinin rəhbərliyi cəbhəboyu zonadakı yeni inşa edilən üç hərbi şəhərcikdəki qərargahlar, yataqxanalar, döyüş texnikası üçün saxlanclar, sıra meydanları, yeməkxanalar, tibb məntəqələri, digər xidməti, inzibati bina və qurğularda, eləcə də iki hamam-camaşırxana-qazanxana komplekslərində gedən tikinti işləri ilə tanış olub.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov şəxsi heyətlə müxtəlif hərbi hissələrdə keçirilən görüşlərində Ali Baş Komandanın ordu quruculuğuna göstərdiyi yüksək diqqətin nəticəsi olaraq son vaxtlar döyüş və mənəvi-psixoloji hazırlığın daha da artırılması, sosial-məişət şəraitinin yaxşılaşdırılması və maddi-texniki bazanın möhkəmləndirilməsi məqsədilə görülən işləri diqqətə çatdırıb.

Müdafiə Nazirliyinin rəhbərliyi yeni tikilən əsgər yeməkxanalarından birində hərbi qulluqçularla birlikdə nahar edib, mülki qulluqçularla söhbət edərək, müvafiq göstəriş və tövsiyələrini verib.

Cəbhə bölgəsinə səfər çərçivəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov tikilməkdə olan digər hərbi şəhərciklərə də baş çəkərək inşaat işlərinin keyfiyyəti ilə maraqlanıb, müvafiq tapşırıq və tövsiyələrini veriblər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**



# Bir qrup hərbi qulluqçuya növbəti polkovnik hərbi rütbəsi təqdim olunub

***9 Noyabr Dövlət Bayrağı Günü münasibəti ilə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən, bir qrup zabitə növbəti polkovnik hərbi rütbəsi verilib.***

Hərbi qulluqçuları qəbul edən Müdafiə naziri onlara gələcək xidmətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini çatdırıb.

Müdafiə naziri son vaxtlar dövlət rəhbərliyi səviyyəsində ordu quruculuğunun inkişaf etdirilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlərdən, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı nəticəsində Silahlı Qüvvələrdə görülən irimiqyaslı quruculuq işlərindən danışıb.

General-polkovnik Zakir Həsənov vurğulayıb ki, dövlətin orduya göstərdiyi bu yüksək diqqət və qayğıya cavab olaraq hər bir zabit üzərinə düşən vəzifə borcunu vicdanla yerinə yetirməli, Silahlı Qüvvələrimiz xalqın və dövlətin etimadını doğrultmaq üçün bütün vəzifə və tapşırıqların öhdəsindən layiqincə gəlməlidir.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Müdafiə naziri Koreya Respublikası Hərbi Dəniz Qüvvələrinin komandanı ilə görüşüb

***Noyabrın 10-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Koreya Respublikası Hərbi Dəniz Qüvvələrinin komandanı admiral Jung Ho-Sub ilə görüşüb.***

Admiral Jung Ho-Subun rəhbərlik etdiyi nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin və Zərifə xanım Əliyevanın, eləcə də Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edərək əklillər və gül dəstələri qoyub.



Azərbaycan Respublikası Müdafiə Nazirliyində nümayəndə heyətlərinin geniş tərkibdə keçirilən görüşündə ölkələrimiz arasında müdafiə, o cümlədən hərbi təhsil, hərbi-texniki sahələrdə əməkdaşlığın perspektivləri, dövlətlərimizin yerləşdikləri regionlarda təhlükəsizlik məsələləri müzakirə olunub.

Hərbi-siyasi vəziyyətə toxunan Müdafiə naziri Ermənistanın regiondakı sabitliyə əsas təhlükə yaratdığını, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn normaları və prinsipləri çərçivəsində həllinə nail olunmasının vacibliyini vurğulayıb.

Ölkəmizə səfərindən məmnunluğunu ifadə edən koreyalı admiral Azərbaycan-Koreya əlaqələrinin möhkəm dostluğa əsaslandığını xüsusi qeyd edib.

Görüşdə Azərbaycanın Hərbi Dəniz Qüvvələrinin inkişaf etdirilməsi üçün qarşılıqlı səfərlərin təşkili, azərbaycanlı hərbi dəniz zabitlərinin Koreyanın hərbi məktəblərində və akademiyalarında təhsil almaları, şəxsi heyətin döyüş gəmilərində təcrübə keçmələri, o cümlədən qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Koreya nümayəndə heyətinin Hərbi Dəniz Qüvvələri bazasına ziyarəti, müasir infrastruktura malik ərazi və hərbi gəmilərlə tanışlığı, eləcə də şəxsi heyətlə görüşləri keçiriləcək.

Səfər noyabrın 11-dək davam edəcək.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***9 noyabr 2015-ci il.***

2015-ci ilin aprel ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ağdaş rayon şöbəsindən hərbi xidmətə çağırılmış Silahlı Qüvvələrin hərbi qulluqçusu, 1996-cı il təvəllüdlü əsgər Siraclı Məhəmməd Malik oğlunun ölümü ilə bağlı Qazax Hərbi Prokurorluğu tərəfindən cinayət işi başlanıb, araşdırma aparılır.

Bildiririk ki, baş vermiş hadisə ilə bağlı ictimaiyyətə dəqiq məlumatın çatdırılması məqsədilə müvafiq qaydada Müdafiə Nazirliyi və Hərbi Prokurorluq birgə tədbirlər həyata keçirir.

Lakin bəzi kütləvi informasiya vasitələri tələskənliyə yol verərək qeyri-dəqiq, rəsmi təsdiqlənməyən məlumatlar yaymaqla ictimaiyyətdə yanlış təsəvvürün yaranmasına səbəb olurlar. Buna görə də Silahlı Qüvvələr haqqında verilən xəbərlərin Müdafiə Nazirliyi ilə dəqiqləşdirilməsi bir daha tövsiyə olunur.

***10 noyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 92 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində, Noyemberyan rayonunun Dovex, Şavarşavan kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı, Kəmərli, Fərəhli kəndlərində, Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonu ərazisindəki adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Tapqaraqoyunlu, Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Cəvahirli, Kəngərli, Sarıcalı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 100 dəfə atəş zərbəsi endirib.

# Tarixin böyük günü



***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, Şəmkir Olimpiya və İdman Kompleksində üçüncü ordu birliyi, Şəmkir rayon İcra Hakimiyyəti və Gəncə Qarnizonu Zabitlər Evinin birgə təşəbbüsü ilə Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününə həsr olunmuş tədbir keçirilib.***

Müstəqilliyimizin, dövlətçiliyimizin rəmzi olan Dövlət himni hərbi orkestrin müşayiəti ilə ifa olunub.

Əməkdar artist Elxan Abbasov, Zabitlər Evinin əməkdaşı Kəmalə Məmmədova müstəqilliyimizin rəmzi olan Dövlət bayrağının ilk dəfə 1918-ci ilin 9 noyabrında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən qaldırıldığını və 71 ildən sonra yenidən müstəqilliyimizin rəmzi kimi qəbul olunduğunu bildiriblər. Üçrəngli bayrağımızın ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində yenidən qaldırıldığı tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Azərbaycanın Milli Qəhrəmanı general-leytenant Rövşən Əkbərov Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrik məktubunu tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Dövlət Bayrağı Günü münasibəti ilə şəxsi heyətin mükafatlandırılması haqqında birlik komandirinin əmri oxunub. Döyüş hazırlığında fərqlənən hərbi qulluqçular Surxay Məmmədova, Ələkbər Nuriyevə, Ramil Baxşıyevə, Elşən Rüstəmliyə, Rəşad Əliyevə qiymətli hədiyyələr təqdim olunub.

"Azərbaycan Bayrağı" ordenli, Qarabağ əlili Xəqani İbrahimova, Əfqanıstan müharibəsi veteranı Rövşən Məmmədova və Böyük Vətən müharibəsi iştirakçısı Rəcəb Quliyevə də general-leytenant Rövşən Əkbərov tərəfindən hədiyyələr təqdim edilib.

Tədbir iştirakçılarına Zabitlər Evinin təşəbbüsü ilə yaradılan "Vətən uğrunda" saytı və eyni adla sosial şəbəkələrdə yer alan səhifə haqqında ətraflı məlumat verilib. Saytın yaradılmasından az müddət keçməsinə baxmayaraq bir çox xarici ölkələrdən soydaşlarımızın müraciətləri daxil olub, onlar Azərbaycan uğrunda döyüşlərə hazır olduqlarını bildiriblər.




Çavuş Elnur Abbasovun oxuduğu əsgər marşı, Zabitlər Evinin nəzdində fəaliyyət göstərən hərbi teatrın "Ayağa dur, Azərbaycan" kompozisiyası, "Göy-göl" mahnı və rəqs ansamblının "İgidlər rəqsi", "Vətən uğrunda" mahnı müsabiqəsinin qalibləri Sabir Əliyevin, Rəşad İsmayılovun oxuduğu mahnılar rəğbətlə qarşılanıb.

"N" hərbi hissəsinin kəşfiyyatçıları yüksək döyüş hazırlığına malik olduqlarını nümayiş etdiriblər.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bayrağımız haqqında dediyi fikirləri səsləndirən videoçarx nümayiş olunub:

- Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımız, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində Dövlət Bayrağı dalğalanır. Azərbaycan öz ərazilərini işğaldan azad etdikdən sonra bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada... dalğalanacaqdır. O günü hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun Azərbaycan Bayrağına!

Azərbaycan Respublikasının xalq artisti Azərin tədbir iştirakçılarını təbrik edərək, xalqımızın ən böyük istəyi olan qələbə sevinci arzulayıb, bir-birindən gözəl vətənpərvərlik mahnıları ifa edib.

General-leytenant Rövşən Əkbərov tədbir iştirakçılarına Müdafiə Nazirliyinin rəhbərliyi adından minnətdarlıq edib.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**M. MÖHÜBBƏTİNDİR**

# Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsi anıldı

***İstər əlamətdar, istərsə də adi günlərdə torpaqlarımızın azadlığı uğrunda şəhid olan oğul və qızlarımızın xatirəsi Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən hörmətlə anılır, xatırlanır.***



Noyabrın 8-də - Bayraq Günü ərəfəsində Müdafiə Nazirliyinin rəhbərliyi və Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Komandanı adından Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun məzarı ziyarət olundu, önünə əklil qoyuldu.

Hava yağışlı və çiskinli olsa da, ikinci Şəhidlər xiyabanında böyük canlanma var idi. Hərbi qulluqçular dəstə-dəstə xiyabana gəlirdilər. Mərasimdə torpaqlarımızın azadlığı uğrunda şəhid olanların ruhuna dualar oxundu, xatirələri bir dəqiqəlik sükutla yad olundu. Sonra əsgərlər sakit addımlarla əklilləri xiyabana gətirdilər. Səhər ertədən başlayan yağış isə ara vermir, yağdıqca yağır.

Əklillər və gül dəstələri Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun məzarı önünə gətirilir. Müdafiə Nazirliyi adından əklili məzarın üstünə Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının komandanı adından isə general-mayor Şirin Xəlilov qoydu.

Sonra mərasim iştirakçıları tərəfindən torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş oğul və qızlarımızın məzarı üstünə tər qərənfillər düzüldü.

**"Azərbaycan Ordusu"**



## Təntənəli yürüş

***Qürur və iftixarla qeyd etdiyimiz Dövlət Bayrağı Günü milyonlarla soydaşımızın sevgi və ehtiramının əlaməti olaraq şəhər və rayonlarımızda, həmçinin, bölgələrdə yerləşən müxtəlif qoşun növlərinə məxsus hərbi hissələrdə də geniş qeyd edilib.***

Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində isə 9 Noyabr günü özünəməxsus təntənələri ilə yadda qalıb. Polkovnik-leytenant Bünyam Hümbətovun redaksiyamıza verdiyi məlumata görə, şəhər ictimaiyyətinin və şəxsi heyətin qatıldığı izdihamlı mərasimdə dövlət qurumlarının nümayəndələri, ziyalılar və hərbi qulluqçular çıxış edərək, Dövlət Bayrağı Gününün təsis edilməsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətlərindən söhbət açıblar. Natiqlər qeyd ediblər ki, üçrəngli bayrağımıza tükənməz hörmət və ehtiram hissi xalqın öz müstəqilliyinə və dövlətçilik ənənələrinə sadiqliyindən qaynaqlanır. Müasir dövrdə ölkəmizin bütün sahələrdəki sürətli inkişafından danışan çıxışçılar Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu islahatlardan, əvvəlki dövrlərlə müqayisədə ordu quruculuğu istiqamətində görülən işlərdən bəhs ediblər.

Hərbi hissənin əsgərləri bayrağımızı başları üzərinə qaldıraraq təntənəli yürüş marşını yerinə yetiriblər.

**"Azərbaycan Ordusu"**

# Erməni tərəfinin uydurması Azərbaycan-Rusiya münasibətlərinə heç bir xələl gətirə bilməz

Ermənistanın bəzi kütləvi informasiya vasitələri dövlət sərhədində Rusiyaya məxsus yük maşınının guya atəşə tutulması barədə gülünc, cəfəng məlumat yayıblar. Görünür, son vaxtlar iflasa uğrayan erməni hərbi və təbliğat sistemi Azərbaycan və Rusiya münasibətlərinin mehriban dostluq, qonşuluq, tərəfdaşlıq çərçivəsində olmasından və ikitərəfli əlaqələrimizin yüksələn xətlə inkişafından həmişə olduğu kimi yenə də narahatdır.

Müdafiə Nazirliyinin Mətbuat Xidməti AZƏRTAC-ın bununla bağlı sorğusuna cavab olaraq bildirir ki, erməni tərəfi Azərbaycan və Rusiya arasında əlaqələrə qısqanclıqla yanaşır, həsəd və qibtə hisslərini cilovlaya bilmir. Odur ki, məqsədyönlü surətdə törətdikləri hadisəni növbəti dəfə Azərbaycan tərəfinin üzərinə yıxmaqla, guya öz aləmlərində bu münasibətlərə xələl gətirə biləcəklərini düşünürlər.

Silahlı Qüvvələrimiz tərəfindən mülki sakinlərə, qeyri-döyüş texnikasına və obyektlərə heç vaxt atəş açılmayıb. Buna görə də yayılan məlumatların heç bir əsası yoxdur, tam uydurmadır və düşmən tərəfinin növbəti uğursuz təxribat cəhdidir.

# Dövlət bayrağımız haqqında nə bilirik?



***Bu günlər xalqımız Dövlət Bayrağı Gününü təntənə ilə qeyd edir. Bayraq, gerb və himn hər bir hüquqi dövlətin rəmzlərini təşkil edir. Vətənini sevən azərbaycanlı bayrağımıza, gerbimizə və himnimizə ehtiramla yanaşmalı, bunu özünün müqəddəs borcu kimi qəbul etməlidir.***

***Bu əlamətdar hadisə ərəfəsində ali hərbi məktəblərimizin kursantları Dövlət Bayrağı Meydanında keçirilən tədbirdə iştirak edirdilər. Tədbirin gedişinə onların Dövlət bayrağı haqqında nə qədər məlumatlı olmalarını öyrənmək istədim.***

***- Salam, xahiş edirəm özünü təqdim et.***

- Mən, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı Sicat Məmmədli.

***- Azərbaycan bayrağının yaranma tarixi haqqında nə deyə bilərsən?***



- Azərbaycan Respublikasının Dövlət bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib və 1920-ci il aprelin 28-dək rəsmi dövlət statusuna malik olub. Həmin bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olan ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən iclasın sessiyasında Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq qəbul edilib. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" qanun qəbul edərək onu Dövlət bayrağı elan edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 17 noyabr 2009-cu il tarixli sərəncamına əsasən, hər il noyabrın 9-u Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd edilir. İlk dəfə Dövlət Bayrağı Günü 2010-cu il noyabrın 9-da qeyd olunub.

***- Bayraq nəyin rəmzidir?***



Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı Cavid Mustafayev:

- Azərbaycan Respublikasının dövlət atributlarından, dövlətçilik rəmzlərindən biri onun Dövlət bayrağıdır. Azərbaycan Respublikasının Dövlət bayrağı Azərbaycanın müstəqilliyinin və suverenliyinin rəmzidir. Ən qədim dövrlərdən bəri hər bir millətin özünəməxsus bayraqları olub. Bizim bayrağımızda da öz milli dəyərlərimiz ifadə olunub. Xalqın və dövlətin ən mötəbər günlərində, müharibə meydanlarında bayraq qaldırılır və bayraq uğrunda savaşlar aparılır. Şəhidlər son mənzilə yola salınarkən bayrağa bükülür. Bayraq yerə düşəndə öpüb gözümüzün üstünə qoyuruq. Bayraq milli mənliyimiz, milli güvəncimizdir.

***- Bayrağın neçə rəngi var və onların mənası haqqında nə deyə bilərsən?***

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı Hafiz Qasımov:

- İlk dəfə üçrəngli bayraq ideyasını Azərbaycan istiqlaliyyətinin ideoloqlarından olan Əli bəy Hüseynzadə gündəmə gətirib. Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq isə yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olması, türkçülük ideyası ilə bağlıdır. Qırmızı rəng - müasirliyi, demokratiyanı ifadə edir. Yaşıl rəng - İslam sivilizasiyasına, islam dininə mənsubiyyətimizi ifadə edir. Bütövlükdə isə bu rənglər türk milli soykökünün, müsəlman sivilizasiyasının və müasir Avropa demokratik əsaslarının vəhdətidir.



***- Bayrağın üzərindəki səkkizguşəli ulduzun və ayparanın mahiyyətini necə açıqlayardın?***

Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbinin kursantı Məmməd Novruzov:

- Tarixdən öyrəndiyimizə görə, Xalq Cümhuriyyəti tərəfindən üçrəngli bayraq dövlət bayrağı kimi qəbul olunanda orada rənglərin nəyə işarə etdiyi göstərilsə də, aypara və səkkizguşəli ulduzun mənaları açıqlanmayıb. Bayrağın üzərindəki aypara və səkkizguşəli ulduzun mənaları barədə müxtəlif fikirlər səslənir.

Əslində bayrağın üzərindəki aypara türk xalqlarının simvoludur. Səkkizguşəli ulduzun mənasına gəlincə, bu, "Azərbaycan" sözünün əski əlifbada yazılışı ilə bağlıdır. Belə ki, əski əlifbada "Azərbaycan" sözü səkkiz hərflə yazılır. Bəzi tarixi rəvayətlərə görə isə səkkiz rəqəmi, səkkiz türk oymağının (xaqanlığının), aypara isə qədim türklərin müqəddəslik rəmzini ifadə edir.

Tarixdə səkkiz guşəli ulduzun mənası belə açıqlanır: türkçülük, islamçılıq, çağdaşlıq, dövlətçilik, demokratiklik, bərabərlik, azərbaycançılıq və mədəniyyətlilik xalqımızın və dövlətimizin rəmzidir. Azərbaycan bayrağında ulduz Azərbaycan memarlıq üslubunda geniş istifadə olunub və səkkiz guşə səkkiz türk xalqının simvoludur.

*Bayrağımız milli ləyaqət rəmzidir. Onu başı üzərində tutmaq, vüqarla dalğalandırmaq hər bir vətəndaşın şərəf borcudur. Gələcəyin Azərbaycan zabiti olacaq kursantlarımızın Dövlət bayrağımız haqqında kifayət qədər məlumatlı olmaları məni çox sevindirdi. Qürurlandım ki, bu qədər öz tarixini dərindən bilən, dövlət rəmzlərinə ehtiramlarını ifadə edən layiqli gəncliyimiz formalaşıb.*

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Rusiya Prezidenti Misirə uçuşları qadağan edən fərman imzalayıb



Rusiya Prezidenti Vladimir Putin noyabrın 8-dən Misirə təyyarə uçuşlarının müvəqqəti qadağan edilməsi haqqında fərman imzalayıb. Fərmana əsasən, turoperatorlara və turizm agentliklərinə Misir Ərəb Respublikasına turların satışından çəkinmək tövsiyə olunur. Həmçinin, hökumətə Misirdəki Rusiya vətəndaşlarının geri qayıtması ilə bağlı tədbirlər görmək tapşırılır. Bu günlərdə təyyarələr Qırmızı dənizin sahillərindən minlərlə insanı daşıyır. Söhbət evakuasiyadan getmir. Hər kəs öz vaxtında, amma xüsusi rejim üzrə uçur. Sərnişinlərin yükləri isə ayrıca təyyarə ilə daşınır. Böyük Britaniya, Almaniya, Fransa və bir sıra digər Avropa ölkələri də Misirə turist uçuşlarını Rusiyaya məxsus A321 təyyarəsinin qəza səbəbləri tam aydınlaşanadək dayandırıb.

### G20-nin Antalya Zirvə görüşünü 3 min jurnalist işıqlandıracaq




Noyabrın 15-16-da Türkiyənin Antalya şəhərində keçiriləcək G20 qrupunun Zirvə görüşündə iştirak etmək üçün üzv ölkələrdən 13 min nəfər, o cümlədən 3 min nəfər KİV nümayəndəsi qeydiyyatdan keçib. Zirvə çərçivəsində 7 böyük toplantı keçiriləcək. Xatırladaq ki, Azərbaycan Türkiyənin G20-ə sədrliyi dövründə bu qurumun toplantılarında xüsusi dəvətli qonaq statusunda təmsil olunur.

### "Dubai Airshow-2015" beynəlxalq aviasalonu açılıb



Dubayda dünyanın ən böyük aviasalonlarından biri olan "Dubai Airshow 2015"-in açılışı olub. Aviasalon noyabrın 12-dək davam edəcək. Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "WAM" rəsmi informasiya agentliyi xəbər verir ki, müasir aviasiya sərgisində 120 ölkə təmsil olunur.

Tədbir çərçivəsində BƏƏ-nin vitse-prezidenti və Baş naziri, Dubay şeyxi Məhəmməd bin Rəşid əl-Maktum və onun qardaşı, Əbu-Dabi şahzadəsi, vəliəhd Şeyx Məhəmməd bin Zayed Əl-Nəhyan iştirakçı ölkələrin nümayəndə heyətlərinin başçılarını, o cümlədən aviasiya, müdafiə, nəqliyyat nazirlərini və digər yüksək rütbəli məmurları qəbul ediblər. Sərginin təşkilatçılarının sözlərinə görə, indiki aviasalon böyüklüyünə görə 2013-cü ildə keçirilmiş sərgini üstələyir.

Müasir uçuş aparatlarının sərgisində 1100-dən çox nümayəndə iştirak edir. Sərgidə 160-dan çox təyyarə, o cümlədən hərbi, sərnişin və nəqliyyat təyyarələri, habelə pilotsuz uçuş aparatları nümayiş etdirilir.

### Vatikanın "Milan Expo-2015" sərgisindəki pavilyonu qaçqınlar üçün 150 min avro vəsait toplayıb




Vatikanın "Milan Expo-2015" beynəlxalq sərgisindəki pavilyonu İordaniyada məskunlaşmış qaçqınlar üçün ziyarətçilərdən 150 min avro vəsait toplayıb. Toplanan vəsait Roma Papası Fransisk tərəfindən yaradılmış xüsusi fonda bağışlanıb. Bu barədə Vatikanın mədəniyyət üzrə pontifik şurasının sədri kardinal Canfranko Ravazi məlumat verib. Vatikan rəsmisi Müqəddəs Taxt-Tacın pavilyonuna gələn ziyarətçilərin kiçik yardımları ilə evsiz və yardıma ehtiyacı olan insanlara dəstək verilməsini önəmli təşəbbüs kimi dəyərləndirib. O deyib: "Pavilyonumuzun əsas mövzusu dünyada hökm sürən aclıq idi. Bu baxımdan ziyarətçilər bu məkana böyük maraq göstərirdilər".

### Xorvatiyada parlament seçkiləri baş tutdu



"İpsos Puls" agentliyi Xorvatiyanın milli televiziyasının sifarişinə əsasən, noyabrın 8-də keçirilən parlament seçkilərinə dair sorğu aparıb. Sorğunun nəticələrinə görə, ölkənin 2013-cü ildə Avropa İttifaqına daxil olmasından sonra keçirilən ilk parlament seçkilərində əsas rəqiblər olan hazırkı Baş nazir Zoran Milanoviçin sol "Xorvatiya inkişaf edir" koalisiyası və Tomislav Karamarko ətrafında birləşən mühafizəkarlar partiyası liderlik edir. Onların hər biri parlamentdəki 151 yerdən 56-sını qazanıb. Digər yerləri qalan 5 partiya bölüşdürür.

### Tehranda Mətbuat sərgisi açılıb




Tehranda Mətbuat sərgisi açılıb. "Ədalətli tənqid və məsuliyyətli yanaşma" devizi ilə keçirilən sərgidə 600 yerli və xarici media strukturu iştirak edir.

Sərginin açılış mərasimində çıxış edən İran İslam Respublikasının Prezidenti Həsən Ruhani bildirib ki, ictimai-siyasi həyatın güzgüsü olan mətbuat hadisələri düzgün işıqlandırmalı, qərəzə və yalana yol verməməlidir.

Prezidentin sözlərinə görə, nüvə proqramı ilə əlaqədar Qərb dövlətləri ilə aparılan danışıqlarda İran böyük diplomatik qələbə əldə edib, lakin buna baxmayaraq bəzi mətbuat orqanları qeyri-obyektiv xəbərlər yayır. H.Ruhani qeyd edib ki, mətbuatın işi tənqid etməkdir. Lakin bu tənqid ədalətli olmalıdır. Jurnalistlər mühüm siyası məsələlərə məsuliyyətlə yanaşmalıdırlar. Sərgidə İranın İRNA, Mehr, Fars və digər internet saytlarının və qəzetlərinin məhsulları nümayiş olunur.

**AZƏRTAC-ın materialları əsasında**

## General Səməd bəy Mehmandarov - 160

# “Mehmandarov çox söhbətcil və çox yaxşı yol yoldaşı imiş...”

***Görkəmli hərb xadimi general Səməd bəy Mehmandarovun 160 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2015-ci il tarixli sərəncamının icrası ilə əlaqədar Müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində silsilə tədbirlərin təşkilini təmin etmək məqsədilə təşkilat komitəsinin yaradılması barədə əmr imzalayıb. Artıq Silahlı Qüvvələrimizdə görkəmli sərkərdənin 160 illiyinə həsr olunmuş tədbirlər keçirilir.***

İlk azərbaycanlı tam artilleriya generalı S.Mehmandarovun ömür yolu mürəkkəb dövrlərə təsadüf edib. Sovet dönəmində onun haqqında yazılan ədəbiyyatları araşdırarkən üç nüsxə kitabçaya rast gəldim. Bunlardan birincisi, generalı şəxsən tanıyan keçmiş hərbçi Hacı ağa İbrahimbəylinin 1946-cı ildə qələmə aldığı "Səməd bəy Mehmandarov" adlı kitabdır. Müəllif oxucularına görkəmli generalın keçdiyi şərəfli döyüş yolundan Sovet dövrünün ideoloji tələblərinə cavab verən məzmunda söhbət açıb: "General Mehmandarov birinci imperialist müharibəsi zamanı çox şöhrət qazanmışdı. Şəxsən Mehmandarovu görənlərin hamısı təsdiq edir ki, ona təbə olanlar ondan oddan qorxan kimi qorxar, lakin onu sevər, ona inanardılar. Mehmandarov əsgərlərlə həmişə xoş rəftar edərdi və daim onların qayğısına qalardı".

1918-ci ilin isti avqust günlərinin birində Vətənə dönən iki hərbçi biri şöhrəti ölkələri dolaşan tam artilleriya generalı S.Mehmandarov, o birisi isə vaxtilə onun tabeliyində xidmət etmiş rotmistr Hacı ağa İbrahimbəylidir. Onlar Tbilisi vağzalında Batumi-Bakı qatarı ilə eyni qatarda, eyni kupedə yol yoldaşı olurlar. Sonralar H.İbrahimbəyli bu görüşü həyatının ən gözəl, ən xoş anları kimi xatırlayacaqdı: "Mehmandarov çox söhbətcil və çox yaxşı yol yoldaşı imiş. O, mənimlə bəzən rusca, bəzən də azərbaycanca danışırdı. O, ahəstə-ahəstə danışırdı, hər sözünü ölçüb-biçirdi, fikrini sadə və düzgün ifadə edirdi. Onun danışıq tərzi, səsi sakit və qəti tonu, özünü sərbəst hiss etməsi göstərirdi ki, bu insan uzun və maraqlı həyat sürmüş, böyük vəzifə sahibi



olmuş, şanlı, igid əsgər həyatı keçirmişdi".

1977-ci ildə Səməd bəy Mehmandarov haqqında rus dilində ikinci kitabça - "General Mehmandarov" dərc olunub. Ehtiyatda olan polkovnik Əli Abbasovun müəllifliyi ilə araya-ərsəyə gələn kitabda görkəmli generalın döyüş anlarından epizodlar elə canlı şəkildə təsvir edilir ki, sanki oxucular həmin məqamları kino lenti kimi gözləri önündən keçirirlər. Unudulmaz, sevimli müəllimi haqqında bu kitaba ön söz yazan general-mayor Akim Abbasov (A.Abbasov hərbi təhsil alarkən general S.Mehmandarov onun müəllimi olub) xatirələrini oxucularla bölüşür və onun müdrik çağlarında da qeyri-adi dərəcədə əməksevər olduğunu, çətin peşəsinə ürəkdən bağlandığını belə qələmə alırdı: "Mənə xoşbəxtlik nəsib olmuşdu. Mən üç il rus-yapon və Birinci Dünya müharibəsinin bu tanınmış qəhrəmanının rəhbərliyi altında oxumuşam. Onun leksiyaları elə maraqlı idi ki, onları elə məharətlə oxuyurdu ki, hər bir sözü dinləyicilərin üreyində özündə yer tapırdı. Bu insanın hərbi işi geniş və dərindən bilməsi insanı heyrətə salırdı".

Üçüncü kitabça Azərbaycan hərb tarixinin yorulmaz tədqiqatçısı ehtiyatda olan polkovnik-leytenant Şəmistan Nəzirliyə məxsusdur. Onun apardığı tədqiqatlarda hərb tarixinizin qaranlıq səhifələrinə aydınlıq gətirilir və çoxlu sayda məqalələri ilə dövrü mətbuatda çıxışlar edir...

"Ötən əsrin ortalarında Qarabağ igidlərinin, Şirvan alayının, Kəngərli döyüşçülərinin, Qazax süvari dəstələrinin yadellilərə qarşı qeyri-adi qəhrəmanlıqlarının şahidi olan xalqımızın böyük mütəfəkkiri M.F.Axundov fəxrlə deyirdi: "Doğmamış Qafqazda analar qorxaq" Ş.Nəzirlinin Aleksandr Stepanovun "Port-Artur", Trofim Borisovun "Port Arturçular" romanlarından götürdüyü qeydlər gərgin jurnalist tədqiqatının məhsuludur. "1904-cü il dekabrın 16-da komandan Stessel qalanı yaponlara danışıqsız təslim etmək istəyəndə polkovnik S.Mehmandarov və onun zabit heyəti qəti etiraz edərək necə əsəbiləşmişdilər. Səməd bəy Mehmandarov və onun zabit heyəti inad edirdilər ki, qalanı son nəfəsə qədər müdafiə etmək lazımdır. Heç kəs biabırçı vəziyyətdə Rusiyaya qayıtmaq istəmirdi".

1949-cu ildə Yusif Şirvanın iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun mənalı ömür, şərəfli döyüş yolundan bəhs edən "Həzi Aslanov" adlı kitabında da general Səməd bəy Mehmandarovla bağlı xatirələr oxucuya çatdırılır: "Lənkərana gələn saysız-hesabsız hərbi adamlardan biri də rus ordusunda şöhrət qazanmış topçu general Mehmandarov idi. General Şilavar yolunda olan evində yaşayırdı. O, tez-tez Böyük bazara, Qalaya, dəniz kənarına çıxar, sadə adamlarla, uşaqlarla söhbət etməyi sevərdi. Bəzən olurdu ki, qoca general əlindəki əsaya söykənə-söykənə Lənkəranın "Naçalnik bağı" adlanan hissəsinə çıxar, çayqırağında da gəzərdi. Belə hallarda uşaqlar onun ətrafına toplaşar və general uşaqlarla mehribancasına söhbət edər, onların saysız-hesabsız suallarına cavab verərdi. Həzi və onun yoldaşları generalla belə tanış olmuşdular. Onlar bu adamın əqidəsi, məsləki və vəzifəsi haqqında heç bir təsəvvürə malik deyildilər. General onunla birlikdə cəbhələrdə olmuş, daha yüksək mövqelər tutmuş topçu general Əlağa Şıxlinski haqqında uşaqlara çox maraqlı şeylər danışardı. Generala olan bu yaxınlıq uşaqlarda qəribə bir əhval-ruhiyyə oyandırmışdı. Artıq uşaqlar ən çox hərbi oyunlarını sevməyə başlamışdılar..."

Məlumat üçün bildirim ki, qəzetimizin növbəti nömrələrində "İki dahi şəxsiyyətin dostluğu: Səməd bəy Mehmandarov və Əlağa Şıxlinski", "Mehmandarov haqqında araşdırmalar müstəqillikdən sonra", "Səməd bəy Mehmandarov Port-Artur döyüşlərinin qəhrəmanıdır", "Səməd bəy Mehmandarov I Dünya müharibəsi cəbhələrində", "Səməd bəy Mehmandarovla bağlı xatirələr oxucuya çatdırılır... qaynaqlarında", "Səməd bəy Mehmandarovun kursant yetirmələri" "Lənkəran Səməd bəy Mehmandarovun doğma yurdudur" və s. silsilə məqalələri yer alacaq.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

*1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:*

Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.
Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.
Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.
Laçın (18 may 1992-ci il) - 1835 kv.km.
Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.
Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.
Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.
Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.
Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.
Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

## “Açıq qapı” günündən təəssüratlar



# Oğlumla qürur duyuram

***Xoşbəxtliyi hərə bir cür başa düşür, hərə bir cür dəyərləndirir. Mən o insana xoşbəxt insan deyirəm ki, illərini könül xoşluğuyla yaşayır.***

Mən xoşbəxtəm. Oğul böyütmüşəm. Ağıllı, savadlı. Belarusiyada universitet bitirib. Beynəlxalq münasibətlər üzrə mütəxəssisdir. Hərbi xidmətə çağırılanda sevindik - atası da, mən də. Sevindik ki, oğlumuz Emin sağlamdır, hərbi xidmətə yararlıdır. Özü də sevindi. Hələ yeniyetmə yaşlarında "Təhsil alacam, sonra əsgər olacam" - deyərdi. Bu cavab, təbii ki, bizi qürurlandırardı.

Oğlum hərbi xidmətdədir. Andiçmə mərasimində xidmətindən razılıq eləmişdi. Ana ürəyidi, yenə narahat olurdum. Müdafiə nazirinin əmri ilə "Açıq qapı" günü tədbirinin keçirilməsini biləndə çox sevindim. Səliqəli kazarmalar könlümüzü açdı. Oğlumun yataq şəraitini görəndə o qədər sevindim ki! "Xəzər haradadır?" filmində deyildiyi kimi, əsl dənizçi səliqəsinə heyran oldum.

Xəzərin şıltaqlığı haqqında da mən də eşitmişəm. Həmin gün dəniz elə sakit idi ki. Elə bil matros oğullarla anaların-ataların görüşünə mane olmaq istəmirdi. Dalğaların piçıltısını oğlumla birgə dinlədik. "Xəzər həmişə gözəldi. Onun dilini bilməlisən", - oğlum belə dedi. İnandım ki, dənizçilər dənizin dilini yaxşı bilir. Sakitləşəndə də, coşanda da sevirlər onu. Vətənin keşiyində dayandıqları üçün Xəzər də onları sevir.

Həmin gün mənə xoş təsir bağışlayan çox şey gördüm. Ən çox təsirləndiyim, sevindiyim oğullarımızın xidmət yoldaşlarına münasibəti oldu. Matros dostluğunu gördüm. Oğlumun dostlarını - Əlibabanı, Abbası, Zahiri və başqalarını oğlum kimi bağrıma basdım. Onların anaları da mənim oğluma elə bu səviyyədə görüşdülər.

Bir ana kimi "Açıq qapı" gününə görə Müdafiə naziri general-polkovnik Zakir Həsənova minnətdarlığımı bildirirəm. Sevinirəm ki, gücü-qüdrəti gündən-günə artan Silahlı Qüvvələrimizin tərkibində mənim oğlum da var. İnanıram ki, əsgər də, matros da, zabit də Vətəni göz bəbəyi kimi qoruyacaq, hərbi andda deyildiyi kimi, Vətən üçün nə lazım gəlsə, onu da edəcəklər. Bu ordu mütləq torpaqlarımızı işğaldan azad edəcək.

Hörmətli redaksiya, qəzetinizin 2 noyabr tarixli sayında Mirvari Verdiyevanın "Mən əsgər anasıyam" şeirini böyük sevgilərlə oxudum. Biz analar da əsgər oğullarımıza, əsgər anası adıyla onun kimi qürurlanırıq!..

**Fərqanə MƏLİKLİ,**
**matros anası,**
**İmişli rayonu**

# Xalqla ordunun ürəyi bir döyünür

***Mən hərbi hissələrimizdə tez-tez oluram. Bir ucu Arazqırağından tutmuş Ağdama qədər bütün bölmələrimizi gəzmişəm, dövlətimizin, əmin-amanlığımızın keşiyində dayanmış döyüşçülərimizlə ünsiyyətdə olmuşam. Həm bir valideyn kimi, həm də bir şair, publisist kimi həmişə zabitlərimizlə, əsgərlərimizlə, onların ovqatı ilə maraqlanmışam.***

1992-ci ilin ordusu ilə indiki ordumuz arasında dağlar qədər fərq var. İndi ordumuz yalnız döyüş bacarığını artırmaqla, düşmənlə üzbəüz mövqelərdə döyüş növbəsi aparmaqla məşğuldur. Silahlı Qüvvələrimiz dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunub. Bu gün orduda xidmətlə yanaşı, döyüşçülərimizin qidalanması, asudə vaxtı yüksək səviyyədə təşkil edilib. Bu həm Prezidentimiz İlham Əliyevin orduya qayğısının, həm də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun öz vəzifəsinə vicdanlı münasibətinin nəticəsidir. Bir valideyn kimi, bir şair kimi məni bütün bunlar ürəkdən sevindirir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişinə əsasən, hərbi hissələrimizdə "Açıq qapı" günü keçirilməsi olduqca təqdirəlayiq haldır. Belə tədbirlərin təşkil edilməsi əslində ordu ilə xalqın sıx birliyi deməkdir. Axı ordumuz elə bu xalqın övladıdır. Xalq öz ordusuna güvənir, onunla ordunun ürəyi bir döyünür.

Azərbaycanın qədim tarixi var. Atalar deyiblər ki, haradan gəldiyini bilməyən hara gedəcəyini də bilməz. Bu torpaq ata-babalarımızın yurd-yuvası, məskənidir. Torpağından yarandım, torpağına qovuşacağım məskənim, ümidim, güman yerimdir. İsmətlidir, qeyrətlidir, heyrətlidir bu torpaq. Babəkin mərd baxışı, Şah İsmayılın şax duruşudur bu torpaq. Babalarımız gözəl adət-ənənələrimizi, döyüş meydanında şücaətlərini bizə ərməğan ediblər. Min illərdir ki, bu torpağın oğulları yadellilərə qarşı mərdliklə vuruşublar. Azərbaycan xalqı Şərqdə ilk müstəqil demokratik dövlət yaradıb.



Doğma ordumuzla qürur duyuruq. Çox şükür ki, indi möhkəm dövlətimiz var, qüdrətli ordumuz var.

**Asif CƏFƏRLİ,**
**Beyləqan**

# Ailəmə məktub

Salam, əziz atam. Necəsən? Müalicən necə gedir? Ata, bu gün hərbi hissəmizdə "Açıq qapı" günü keçirilir. Valideynlər, rayon sakinləri hərbi hissəmizdə oldular. Yataqxana, yeməkxana, camaşırxana, sinif otaqlarını gəzib bizim üçün yaradılmış şəraitlə tanış oldular. Bilirəm ki, üzrlü səbəblərdən bu gün tədbirdə iştirak edə bilmirsiz, amma üreyiniz burdadı. Bura gəlmək, mənim xidmət etdiyim şəraitlə tanış olmaq istəyirsiniz. Fikriniz məndə qalmasın. Sağ olsun Ali Baş Komandanımız İlham Əliyev və Müdafiə nazirimiz general-polkovnik Zakir Həsənov. Bu gün orduda bizə yüksək qayğı göstərilir. Komandirlərimiz öz övladları kimi qayğımıza qalır, problemlərimizlə vaxtaşırı maraqlanırlar.

Yeni hərbi hissənin şəraitindən danışım. Hərbi hissəmiz ən müasir avadanlıqlarla təchiz olunub. Yataqxanaların mizda istilik sistemləri quraşdırılıb. Yeni və rahat yataq dəstləri ilə təmin olunmuşuq. Camaşırxanada paltarlarımız tər-təmiz yuyulur. Asudə vaxtlarımızda qəzet və jurnallar oxumaq, hərbi biliklərimizi artırmaq üçün otaqlarımız var. Sinif otaqlarında hərbi jurnallar, kitablar və qəzetlərlə yanaşı, televizorla da təmin olunmuşuq. Əsgər yoldaşlarımızla söhbət edərkən həmişə onu deyirik ki, öz evimizdəyik və bizim bir ailəmiz də var.



Azərbaycan əsgəri adını daşımaqla hər birimiz fəxr edirik. Ata, yadına gəlir həmişə məni danlayırdın ki, idmanla məşğul ol, vaxtında oyan. Mənsə tənbəllik edirdim. Amma artıq tənbəl oğlun yoxdur. Günün nizam qaydasına uyğun olaraq hər gün vaxtında yatıb-durur, idmanla məşğul oluram. Xidmətə gələndən özümü daha sağlam, gümrah və möhkəm hiss edirəm. Gün ərzində peşəkar komandirlərimiz tərəfindən bizə döyüş hazırlığından, silahlardan dərslər keçirilir. Hərbi biliklərə yiyələnirik. Mənə tapşırdığın kimi komandirlərimə hörmətlə yanaşır, onların tapşırıqlarını vaxtında dəqiq yerinə yetirirəm. Ümumilikdə, əsgərlərlə komandirlərimiz arasında elə mehribanlıq var ki, hamı bir-birilə mehribandır.

Anacan, salam. Necəsən? Sənə demək istəyirəm ki, gecələr gözünü rahatca yumub yuxuya gedə bilərsən. Çünki oğlunu ana Vətənə əmanət etmisən. Evdə sənin ən sevdiyin yerin mətbəx olduğunu və çox dadlı yeməklər bişirdiyini unutmamışam. Ona görə sənə yəməkxanamızdan danışmaq istəyirəm. Əvvəlcə onu deyim ki, təmizliyə çox ciddi diqqət edirlər. Aşpazlar xüsusi formalarda - başlarında papaq, əllərində əlcəklə işlərini görürlər. Hətta qablar da qabyuyan maşınlarda yuyulur. Bizə qulluq edən qadın aşpazlar çox dadlı yeməklər bişirirlər. Həmçinin, bizdən soruşub keçirib hansı yeməkləri istəməyimizi də nəzərə alırlar. Qısaca öz anamız kimi bizə istəklərimizə uyğun milli xörəklər bişirirlər. Ana, bu yeddi aylıq xidmət mənə çox şey öyrədib. Mənə uşaqlıqda Vətən haqqında danışardın. İndi vətənpərvərlik hissinin necə ülvi bir hiss olduğunu daha yaxşı anlayıram. Artıq qorxmaz bir döyüşçü kimi yetişirəm və düşməndən qisas almağa hər an hazıram.

Bacı, sən necəsən? Səni təbrik edirəm, orta məktəbi bitirib məzun oldun. Universitetə qəbul ola bilmədiyin üçün üzülmə, inşallah, bu il tələbə adı qazanarsan. Valideynlərimizdən muğayat ol.

Ata, qonşulara və qohumlara çoxlu salamlarımı çatdır. Xüsusən də yaxın dostlarım Elton və Samirə. Əzizlərim, sizinlə sağollaşıram. İnşallah, sizlərə Qarabağdan zəfər məktubunu yazaram. Allah amanında...

**Əsgər**
**Yusif MƏMMƏDOV,**
**"N" hərbi hissəsi**

# İdman

### Sərbəst və yunan-Roma güləşçilərimiz Moskvada keçirilən turnirdə ikinci yeri tutublar



Moskvada güləş üzrə Avropa Millətlər Kuboku turniri başa çatıb. Turnirdə güləşin hər üç növü üzrə Azərbaycan yığma komandaları mübarizə aparıb. Yarışların üçüncü günündə sərbəst və yunan-Roma güləşi üzrə final görüşləri keçirilib. Hər iki yığma komandamız qrup görüşlərini qələbə ilə başa vurub və finala yüksəlib. Finalda həm sərbəst, həm də yunan-Roma yığmamız Rusiya komandası ilə qarşılaşıb. Yunan-Roma güləşçilərinin qarşılaşmasında 6:2 hesabı ilə qalib gələn Rusiya komandası turniri ilk yerdə tamamlayıb. Azərbaycan yığması isə Avropa Millətlər Kuboku turnirinin gümüş medalla başa vurub. Sərbəst güləşçilərin qarşılaşmasında hesab 5:3 Rusiya yığmasının xeyrinə başa çatıb. Yeddi güləşçi ilə mübarizə aparan sərbəst güləş üzrə yığmamız da Avropa Millətlər Kuboku turnirinin gümüş medallarına sahib olub.

### Daha 6 Azərbaycan kikboksçusu dünya çempionu adına layiq görülüb



Azərbaycan kikboksçusu Eduard Məmmədovun erməni idmançısı üzərində parlaq qələbəsindən sonra daha 6 təmsilçimiz dünya çempionu adına layiq görülüb. İspaniyanın Benidorm şəhərində kikboksinqin WKA versiyası üzrə dünya çempionatı başa çatıb. Bu barədə məlumatı komandaya rəhbərlik edən "Orion" Kikboksinq Mərkəzinin məşqçisi Müşviq Hüseynli verib. Eduard Məmmədovla yanaşı, dünya çempionatının fəxri kürsüsünə müxtəlif çəki dərəcələrində Azər Aslanov, Vaqif Bəhlulzadə, Nahid Gülməliyev, Ümid Ağayev, Seymur Cəfərov və Anar İbrahimov qalxıblar.

### İdmançılarımız Yaponiyada kyokuşin karate üzrə qara kəmər alıblar



Azərbaycan Kyokuşin Karate Federasiyası Beynəlxalq Şinkyokuşin Təşkilatının Yaponiyada keçirilən seminarında iştirak edib. Federasiyadan bildirilib ki, komandamız seminara altı nəfər heyətlə qatılıb. Nəticədə 3 nəfər (Mübariz Məlikov, Namiq Vəliyev və Qabil Sayadov) 4-cü dan qara kəmərə, 3 nəfər isə (Əbülfət Hacıyev, Oruc Səfərov və Samir Məmmədov) 3-cü dan qara kəmərə sahib olub. İdmançılarımızı bu yarışa federasiyanın prezidenti Natiq Heydərov və Beynəlxalq Şinkyokuşin Təşkilatının Azərbaycanda nümayəndəsi 5-ci dan qara kəmər ustası Allahverdi Rüstəmov aparıb.

### "Azərreyl" voleybol komandası "Tbilisi"yə asanlıqla qalib gəlib



Qadın voleybolçular arasında Azərbaycan çempionatının ikinci turu çərçivəsində bir oyun keçirilib. Azərbaycan Voleybol Mərkəzində Çempionlar Liqasında mübarizə aparan təmsilçimiz "Azərreyl" yarışda müsabiqədən kənar çıxış edən Gürcüstanın "Tbilisi" komandası ilə qarşılaşıb.Görüşün ilk setində Azərbaycan təmsilçisi asan qələbə qazanıb - 25:6. Qarşılaşmanın ikinci hissəsində "Tbilisi" komandası əzmkarlıq nümayiş etdirsə də, sonda "Azərreyl" üstün olub - 25:20. Üçüncü seti də Bakı təmsilçisi öz xeyrinə başa vurub - 25:7. Beləliklə, görüş "Azərreyl"in 3:0 hesablı qələbəsi ilə başa çatıb.

### Azərbaycan cüdoçusu Aişə Qurbanlı açıq Afrika kubokunda bürünc medal qazanıb



Mavrikiyanın Port-Lui şəhərində keçirilən cüdo üzrə açıq Afrika kuboku yarışlarının ilk günündə altı Azərbaycan idmançısı tatami üzərinə çıxıb. Qadınların yarışında Aişə Qurbanlı (48 kq) əvvəlcə ev sahibi idmançı Letiçiya Lumeloya və daha sonra avstraliyalı Hloe Raynerə qalib gəlib. Lakin cüdoçumuz yarımfinalda ekvadorlu Diana Kobosa az fərqlə məğlub olub. Üçüncülük uğrunda mübarizədə A.Qurbanlı amerikalı Katelin Boysdan güclü olub və nəticədə yarışın bürünc medalına sahib olub.

**AZƏRTAC-ın materialları əsasında**


| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Lalə HÜSEYNOVA | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. | Lisenziya № 361 Sifariş № 865 Nüsxə 4710 |